20 Jahrgang

Monatlich von Politik- und Kultur

اوز گله جه یینی تعیین ائتمه‌ک آذربایجان خالقی‌نین وازگئچیلمه‌ز حاققی‌دیر!

# آنا دیلی

قوچ بۇرجۇ

No. 237-238 ۲۰ - نجی ایل

20 Mai 2004

۳۱ بۇزآيي - كۆزرپه ( فروردين . ارديبهشت )۱۳۸۳

ANA DILI Südazerbaidschanische Exilzeitung

BEINHALTET DIE WÜNSCHE DER AZERBAIDJANISCHEN BEVÖLKERUNG

SIE HAT KEINE BEZIEHUNG ZU PARTEIEN UND VEREINEN



Ursprunglicher Grenzverlauf Azerbaijan

# اۆتانماق دا یاخشی شئیدیر !

# Utanmaqda yaxşi şeydir!

واختي ايله ويئتنام ساواشيندا ناپال بۆمبالاريندان وجۆدلاري يانميش لوت قيز اۆشاقلاري نين شكيللرى هله ده خاطيره لرده ن سيلينمه ميشدير. بۆ ده فعه دئمۆكراسي بايراغي آلتيندا قانۆنسۆزجاسينا عراغا گيرەن آمئريكا قۆشۆنلاري ال آتديقلاري اخلاقسيزليقلار ، آلچاديجي وه غئير اينساني عمللرى وه شيكنجه لرى بوتون اينفۆرماسيا اۆرقانلاريندا عكس ائديلمكده دير. افغانيستاندا كوتلەوى قيرقينلارين يانيندا ، قۆوانتانامۆدا آمئريكاليلارين اينسان حاقلارينا ضيد عمللرينه گۆز يۆمان دونيا ايجتماعييتى ، مخصۆصن اۆزلريني دئمۆكرات بيلەن غرب اۆلكەلرى ، بۆ دەفعه آمئريكا عسگرلرى‌نين عراقداكى جينايتكار عمللرى نين شاهيدى اۆلدۆلار. خالا - خاتي نين قالماسين ديه ائتديكلرى اعتيراضلاردا اينانديريجي اۆلماميشدير. چونكو آورۆپادا يئر آلان اينگيليسلرده عراقليلارلا فرقيلى رفتار ائتمه ميشلر.

ياخۆد ايسراعيلين فلسطين ده‌كي غئير اينساني وه غئير قانوني حركتلرينه گۆز يۆمان ، حتا آمئريكانين بيرلشمشيش ميللتلر تشكيلاتيندا هرده فعه ايسراعيلى قيناما قراري چيخارماق ايستەدييى زامان وئتۆ ائتمەسى، غربيلى لرينده بۆنۆ چۆخ طبيعي قارشيلاماري، رئاكسييا گۆسرمه مه لرى، حتا سۆن قرارينداآمئريكاليلارين ايستەدييى شكيلده دەييشديريلمەسيندن سۆنرا وئتۆدان يارارلانماماسي، ايسراعيل حۆكۆمت باشچيلارينا جساره ت وئرمه‌ك ، فلسطينلى لره هر شئيى روا گۆرمكده ديرلر. ائولريني ييخماقدان، باشلارينا بۆمبا ياغديرماقدان، رهبرلريني اۆلدورمكدەنده چكينميرلر. عكسينه بۆنۆن يوزده بيريني فلسطينليلر ائتميش اۆلساديلار ، اۆندا دونيا بير- بيرينه دەيەردى . هامان غربيلى‌لرين حۆكۆمت باشچيلاريندان تۆتۆب ، اينفۆرماسيا اۆرقانلاري فلسطينلى لرى دونيانين ان جانيسى وه تئرۆرچۆسۆ آدلانديرارديلار. بۆ قاتيل پۆتين اوچوندە گئچه رليدير. اۆنلار وه اۆنلارين اۆردۆ باشچيلاري حقيقتده لاهه ده مۆحاكيمه اۆلۆنماسي گره كن شخصيلرديرلر. آمئريكا باشدا اۆلماقلا غربيلى لرين بۆ ايكى معياردا حركت ائديب، جينايتكارلارين عمللرينه برائت قازانديرماغا چاليشمالاري اوچونجو ميللتلر آراسيندا اۆنلارا اۆلان اينامي يۆخ ائتميشدير. ائله تئرۆريزمين قايناغي بۆرادا ياتير. اۆنلارين بۆ دئديكلرى دئمۆكراسييه اۆزلرى كيمي اۆزگه لريده اينانميرلار. بۆندان آنجاق ديني تعصوبلره دايانان فاناتيك گۆرۆهلار يارارلانيرلار. نتيجه ده كي آپريل آيي نين ايلك هفته سينده جومه گونو شيعه مۆلالاريندان بيرى بغداددا

جومه نامازيندان سۆنرا منبره چيخاراق، غرب دئمۆكراسي سيني لاغا تۆتاراق دئييردى:

« اۆنلارين آنلاديغي دئمۆكراسي قارداشين اۆز باجي سي ايله ياتاغا گئتمه سى دئمكدير. بئله بير دئمۆكراسي‌يه بيز عراقدا ايجازه وئرمييەجەييك. »

گۆروبۆرسونوزكى، آمئريكاليلار ويئتنام ساواشيندان ، جوربوتلر ايسه ايكينجى دونيا ساواشيندا باشلارينا گەلن بلالاردان

آردي ۲- نجي صحيفه ده




CARTOONSTS &WRITERS SYNDICATE
HttpCartoonWeb.com

## قلزبالاشما يۆخسا سرمايا آغاليغي‌مي؟

## Qloballaşma yoxsa Sərmaya ağalaığımı?

عمۆمييتله دونياميزدا بۆگونه قده ر بۆيوك سرمايابا صاحيب اۆلان شيركتلر وه بۆيوك صنايع موسيسه لرى اۆز اۆلكه لرينده‌كى حاكمييتلره اۆنلارين چيخارلاريني تامين ائده جك شكيلده تاثير گۆسترمه يه چاليشيرلار. گئچه ن سۆن اۆن ايللرده بۆيوك سرمايا صاحيبى اۆلان شيركتلر وه صنايع موسيسه لرى داها بير اۆلكه چرچيوه سينه سيغيشماييب، دونيا اوزونه يايلماقدا، بيرى اۆ بيرينى اۆز ايچينده حل ائديله ره

آردي ۲- نجي صحيفه ده

## گۆنئي آذه ربايجاندا حقۆق دۆولتى

## Gűney Azərbaycanda huquq dövləti

Dűnya Azərbaycanlılarının 7.ci Qurultayinda qəzetəmizin sahibi qurultqyın ilk çıxışçısı olaraq çıxışını aşağıdakı movzuya həsr edilmişdir. movzunun əhəmiyyətini nəzərə alaraq qəzetəmizin keçən sayısında vermişdik. bezi oxucularımızın ricası ilə onu latin əlifbasında da vermək isəyirik.

### Qanunun demokratik toplumda rolu, Qanunsuz demokratik toplum ola bilərmi?

Hörməti Qonaqlar, dəyərli vətəndaşlarım!

Bugűn burada əsas bir movzunun űstűndə durmaq istəyirəm. Oda Gűney Azərbaycanda qurulacaq hökumətin hansı əsaslara dayanmasıdır.

Məndə bir Azərbaycanlı kimi Istiqlqlçı təşkilatların əməkdaşlıqlarını alqışlayıram. Onlara milli qurtuluş mucadiləmizdə başarılar diləyirəm. Amma istiqlalı istəmək , onun yolunda mucadilə vermək kafi deyildir. Indidən bu műsteqil gűney Azərbaycanın nə şəkildə idarə olunacağı atributları da bəlli olmalıdır. Ister bu milli mucadiləyə qatılanlar, istərsədə sıravi vətəndaşlar bu műstəqilliyin onlara nə gətirəcəyini, ölkənin hansı usullarla idarə edriləcəyi indidən bəlli olmalı, və bu yolda çalışılmalıdır.

Hamımızın bildiyi kimi Azərbaycan öz sűverenliyini itirib, Rus və Fars műstəmləkəçilərinin arasında bölűndűyűndən, bir műstəqil ölkə kimi öz təbii təkaműl və gəlişməsi műmkűn olmamışdır.

Diktator műstəmləkəçi rejimlər öz diktator hakimiyyətlərini millətimizə təhmil etmişlər. Dəfələrlə millətimiz öz muqədəratını öz əlinə almaq istəsədə buna icazə verilməmişdir. Bu 175 ildə onlar öz dűşűncə və hakimiyyət

Ardı 3.cű səhifədə

## مۆلالار آذه ربايجانا اينترنئت مۆحاريبه سى اعلان ائديلر

## Mulalar Azərbaycana internet muharibəsi elan deiblər

مۆلالار ، آذه ربايجانا قارشي مۆباريزه سينه اينتئرنئت سايتلاريني دا قۆشۆب.

خئيلى (چۆخ) مدت ديركى، ايران مطبۆعات وه اينتئرنئت ( مابئۆر) سايت ( صحيفه ) لارى يئنيده ن آنتى آذه ربايجان ( آذه ربايجانا قارشي ) تبليغاتا باشلاييب . اصليندە ، بئله بير

آردي ۲- نجي صحيفه ده

**DIE SELBSTBESTIMMUNG IST UNVERZICHTBARES RECHT DES SÜD -AZERBAIDJANISCHEN VOLKES!**